**Vətənin şəhid oğulları haqqında yazmaq, onların qəhrəmanlığını, hünərini, döyüş yolunu işıqlandırmaq hər bir qələm sahibi üçün böyük şərəfdir. İstər Birinci Qarabağ döyüşlərində, istərsə də Vətən müharibəsində ömürlərini fəda etmiş biləsuvarlı gənclərin hər birinin qısa, lakin şərəfli ömür yolu mənə yaxşı tanışdır. Ümumiyyətlə, təmsil etdiyim mətbu orqanı da öz səhifələrində hərbi vətənpərvərlik mövzusuna, Vətənin igid, qəhrəman şəhid oğulları haqqında yazılara geniş yer ayırır.**

# Düşmən tankını qənimət gətirən igid




Şərəfli və qədim tarixə malik Azərbaycan xalqı zaman-zaman əbədiyaşar qəhrəmanlar Vətəni olmuşdur. Xalqımızın qanında olan bu qəhrəmanlıq hissləri hər zaman özünü büruzə verir. Tarix minlərlə qəhrəman Azərbaycan övladının adını bu gün də şərəflə yaşadır. Müdrik bir deyim var: "Tarix qəhrəmanları yaratdığı kimi, qəhrəmanlar da tarix yaradır".

Heç kəs anadan qəhrəman doğulmur. İşıqlı dünyaya göz açan bəşər övladı həyatda hər şeyi özü qazanır: rəğbəti də, sevgi-məhəbbəti də. Yaşadığı həyatda el məhəbbətini, sevgisini qazananlar, el-oba gözündə ucalanlar dünyanın bəlkə də ən xoşbəxt adamlarıdır.

Barəsində qürur hissi ilə söz açacağım, adını şanlı hərb tariximizə qızıl hərflərlə yazdıran, hər birimizin fəxr yeri olan Vətən müharibəsi şəhidi, gizir Həsənli Telman Rafiq oğludur. Çox qısa bir tərcümeyi-halı var şəhidimizin. Doğuldu, orta məktəbi bitirdi və... Vətən yolunda şəhid oldu.. O, 1998-ci il martın 3-də Biləsuvar rayonunun Bağbanlar kəndində sadə, zəhmətkeş ailədə anadan olub. 2018-ci ildə ordu sıralarında həqiqi hərbi xidmətini başa vurduqdan sonra bu şərəfli peşədən ayrılmayıb. Gizirlik məktəbini başa vurduqdan sonra, düşmənə yaxın təmas rayonlarında Vətənə xidmət etməyə başlayıb. Xidmət etdiyi hərbi hissədən valideynlərinə göndərilən təşəkkür məktubları onun gələcək uğurlarından xəbər verirdi.

Vətən müharibəsində şanlı ordumuzun cəsur döyüşçüsü, tank komandiri Telman Həsənli döyüşlərin birində yaralanır. Yaralanmasına baxmayaraq, qənimət kimi bir düşmən tankını da özü ilə gətirməyi bacarır. Daha sonra o, Xocavənd, Füzuli və Zəngilan istiqamətlərində, Xudafərinin alınması uğrunda gedən qanlı döyüşlərdə rəşadət göstərərək 2020-ci il oktyabrın 18-də qəhrəmancasına şəhid olur və Bağbanlar kənd qəbiristanlığında torpağa tapşırılır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Telman Həsənli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Telman Vətən uğrunda şəhid oldu! O öz adını xalqımızın tarixinə qızıl hərflərlə yazaraq, əbədiyyətə qovuşdu!

Şəhidlik, həqiqətən də, qeyrət və hünər zirvəsidir. Şəhidlər ölmür deyirlər, onlar Vətənin yaddaşına, torpağın ətrinə, bayrağın əzəmətinə köçür, xatirələrin əbədi qəhrəmanına çevrilirlər. Sən ölməmisən, Telman, əbədi şəhid adının zirvəsindən şanlı ordumuzun yazdığı zəfər dastanına öz adını da yazdırmısan. Çünki bu zəfər Azərbaycan oğullarının qazandığı zəfərdir!

Azərbaycan xalqı hər zaman torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərimizin xatirəsini uca tutur və onlarla fəxr edir. Şəhidlərimiz bizim azadlıq, müstəqillik, yenilməzlik, qəhrəmanlıq simvolumuzdur.

Bu gün Telman kimi qəhrəman oğullarımızla nəinki doğulduğu el-oba, eləcə də bütöv Azərbaycan fəxr edir, hər bir azərbaycanlı qürur duyur. Şəhidlərimizi yad etmək, xatirəsini əziz tutmaq hər birimizin vətəndaşlıq borcudur. Bizlər də Telman Həsənlinin timsalında bütün şəhidlərimizi ehtiramla yad edir, ruhu qarşısında dərin hörmət və ehtiramla baş əyirik.

Ruhun şad, məkanın cənnət olsun, igid Vətən oğlu!

**Müşfiq MİRZƏ,**
**"Respublika".**